# Qobustan



*Payız sayı*

# QOBUSTAN

09.10.2023 №3/200

SƏNƏT TOPLUSU 1969-cu ildən çıxır

Baş redaktor:
**PƏRVİN**

Təsisçilər: **ANAR, "Qobustan"ın yaradıcı heyəti və Azərbaycan Yazıçılar Birliyi**



## Redaksiya heyəti:

Vaqif Əlixanlı, Zemfira Səfərova,
Aydın Talıbzadə, Ramiz Həsənoğlu,
Ziyadxan Əliyev, Arif Hüseynov, Qənirə Paşayeva,
Cəfər Qiyasi, Gülbəniz Göyüşqızı,
Gülnar Səma, Şəhla Aslan, Aytən Heydərova



Şəhadətnamə №347
Redaksiyanın ünvanı: Bakı-Az1000, Xaqani küçəsi 53
Tiraj: 300

www.azyb.az
E-mail: qobustan.jurnali@mail.ru

*Bədii redaktor:* AYXAN
*Qrafik dizayner:* İSGƏNDƏR

Qobustan_İncesenet_Toplusu
Qobustan Toplusu

# *Payız sayında oxuyacaqlarınız*


**PƏRVİN** 4

**Şuşa - açıq səma altında muzey**

**Narıngül NADİR** 15

**Sözün məbədi**

**Minaxanım TƏKLƏLİ**
**Professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti** 29

**Rusiya Dövlət Silah Palatasında Türk yadigarları: Özbək xanın hədiyyə tacı**

**Ədibə İSMAYILOVA**
**Əməkdar mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru** 8

**Yüz il xalqın xidmətində**

**Ramil ƏHMƏD** 21

**İstanbulda üç muzey**

**Dürdanə QURBANOVA**
**Sənətşünas** 34

**Azərbaycan Milli İncəsənət Muzeyinə səyahət**

**Ayaz SALAYEV** 43

**Mirzə Cəlil qəhrəmanları: iki dünya arasında...**


**Qapaq rəsmi - Y.Barxatkova. "Yağışdan sonra"**

**Ədibə İSMAYILOVA**
**Əməkdar mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru**

# Yüz il xalqın xidmətində



Yaranış tarixi eramızdan əvvələ, Assur hökmdarının dövrünə qədər gedib çıxan kitabxanalar minilliklər ərzində təkmilləşib inkişaf edərək mənsub olduğu ölkənin ictimai-mədəni inkişafını, elmini, yazı və oxu səviyyəsini özündə əks etdirən yüksək mədəniyyət abidəsinə çevrilib.

Qədim və zəngin kitabxanaçılıq ənənəsinə malik olan Azərbaycan xalqı bu gün qürur duya bilər ki, Qafqazda və Avropada ən böyük və şöhrətli kitabxanalardan biri olan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına sahibdir. Şəhərin mərkəzində, füsunkar Sahil bağının yaxınlığında yerləşən, hər gün yüzlərlə insanın üz tutduğu, ölkəmizdə elmin, mədəniyyətin, maarifin inkişafında böyük rolu olan Milli Kitabxana yazı nümunələrimizi, ədəbi və elmi vəsaitlərimizi, milli-mənəvi sərvətimizi qoruyub mühafizə edən, nəsildən-nəsilə ötürən məbəddir.

Ölkəmizdə Milli Kitabxananın yaradılması fikri hələ XIX əsrin 70-ci illərində "Əkinçi" qəzeti tərəfindən irəli sürülüb. Sonralar isə ölkə mətbuatında, o cümlədən "İrşad", "Kaspi", "Tərəqqi" qəzetləri, həmçinin "Molla Nəsrəddin" jurnalında bu mə-




sələnin dəfələrlə gündəmə gətirilməsinə baxmayaraq, milli kitabxananın yaradılması təşəbbüsü dövlət səviyyəsində Azərbaycan Demokratik Cümhuriyyəti dövründə qaldırılıb. Lakin Demokratik Respublikanın süqutu bu ideyanın həyata keçməsinə imkan verməmişdi.

Nəhayət, 1920-ci il may ayının 24-də Xalq Maarif Komissarlığı kollegiyası tərəfindən Milli Kitabxananın (Dövlət ümumi kitabxanasının) təşkili haqqında qərar qəbul edildi. Qarşıda isə kitabxananın maddi-texniki bazasının yaradılması, bina ilə təmin edilməsi, kitab fondunun komplektləşdirilməsi və s. kimi görüləsi mürəkkəb işlər dururdu.

Kitabxanaya dəstək məqsədilə ilk olaraq İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsi və Bakı İctimai Cəmiyyətinin kitabxanasının 5 min 212 nüs-

xə kitabı kitabxanaya təhvil verildi.

O zaman kitabxananın əsas çətinliklərindən biri bina məsələsi idi. 1922-ci ildə kitabxana keçmiş Ali İqtisad Şurasının binasına yerləşdirildi və Müseyib Səlimov ora direktor təyin edildi. 1924-cü ildə isə kitabxana AMEA-nın indiki binasına köçürüldü. Fondunda təxminən 21 min kitab olan kitabxananın iki şöbəsi: "Avropa ədəbiyyatı" və "Şərq şöbəsi" vardı və burada 13 nəfər işçi çalışırdı. Sonralar AMEA-nın binasından daha bir neçə otaq kitabxana üçün ayrıldı. Kitabxananı təşkil etmək işi 3 il çəkdi və 1923-cü il 23 may tarixində kitabxananın açılışı oldu. Kitabxanaya Azərbaycan Mərkəzi Dövlət Kitabxanası statusu verildi. Bu, Azərbaycan mədəniyyətinə, ədəbiyyatına və elminə verilən çox böyük, əvəzsiz töhfə idi.

O dövrdə kitabxana tərəfindən həyata keçirilən ən mühüm tədbirlərdən biri respublikada nəşr edilən bütün kitab, jurnal və qəzetlərin iki məcburi nüsxəsinin alınması haqqında dekretin hazırlanıb Respublika Xalq Maarif Komissarlığı tərəfindən təsdiqlənməsi oldu.

Milli Kitabxana yarandığı gündən bu günə kimi uzun, şərəfli, eyni zamanda dinamik bir inkişaf yolu keçib. Bu illər ərzində kitabxana Azərbaycan kitabının qızıl fondunu yaradıb, kitab sayını 5 milyona çatdırıb, eyni zamanda cəmiyyətin inkişafında, ölkədə baş verən bütün mədəni-ictimai proseslərdə, bilavasitə yaradıcı ziyalıların formalaşmasında fəal iştirak edib. Dünyada baş verən yeniliklərlə, cəmiyyətin qarşıya qoyduğu vəzifələrlə ayaqlaşmağa çalışan kitabxana bir qədər mübaliğəli görünsə də, saat-saat, dəqiqə-dəqiqə inkişaf edib yenilənir.

Kitabxananın təşkil edildiyi ilk illərdən kitab artımı o qədər sürətlə gedirdi ki, hesablamalar az qala fantastik rəqəm təsiri bağışlayırdı.

1930-1940-cı illərdə Dövlət Kitabxanasının maliyyələşdirilməsinin sürətli artımı kitab fondunun intensiv şəkildə inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaratdı və nəticədə 1935-ci ildə kitabxana fondu 388 min idisə, 1940-cı ildə artıq 612 min nüsxəyə çatdı. Müxtəlif təbəqəli oxucuların kitabxanaya intensiv axını başlandı.

1939-cu il iyun ayının 1-də Dövlət Kitabxanasına xalqımızın görkəmli mütəfəkkiri, filosof və dramaturqu Mirzə Fətəli Axundzadənin adı verildi.

Əgər inkişaf tarixinə mərhələlərlə nəzər salsaq görərik ki, XX əsrin 50-ci illərində görülən ardıcıl və səmərəli işlər Milli Kitabxananın respublikanın baş kitabxanası, metodik mərkəzi kimi formalaşmasında həlledici rol oynamışdı.

Əldə edilən uğurlar isə dövlət qayğısı ilə bərabər, həm də kitabxanada çalışan şərəfli və çətin peşə sahiblərinin, mütəxəssislərin yorulmaz əməyi nəticəsində qazanılırdı. Milli Kitabxananın fəaliyyətinin təşkili, idarə olunması və inkişafında Azərbaycanın kitabxana işçilərindən Hüseyn Tağıyevin, Məryəmxanım Səmədovanın, Həsənağa Rzaquliyevin, Əliyusif Əliyevin, Bilqeyis Qasımovanın, Xurşud Əliyevanın, Səriyyə Məmmədovanın, Ağakərim Quliyevin, Ələkbər Rəhimovun, Sima İbrahimovanın, Aron Lermanın, Məmmədəli Müsəddiqin, Zabitə Hacıyevanın, Hərifət Həmidovanın və başqalarının müstəsna xidmətləri olub.

1961-ci ilin yanvar ayı ölkəmizdə bütün kitabsevərlər üçün əlamətdar tarix oldu. Milli Kitabxana, layihəsi memar Mikayıl Hüseynova aid olan yeni tikilmiş binaya köçdü və öz qapılarını daha böyük oxucu kütləsinin üzünə açdı. 8730 kv m. sahəsi olan bu yüksək arxitekturaya malik bina 25 milyon nüsxədən artıq kitab üçün nəzərdə tutulmuşdu.

Bu gün şəhərə xüsusi gözəllik verən, unikal memarlıq abidələrindən biri olan Milli Kitabxana binasının eyvanlarındakı 15 heykəl hər kəsin diqqətini uzaqdan özünə çəkir və ayaq saxlamağa məcbur edir.

Bu heykəllərin 9-u sovet, 6-sı isə müstəqillik



dövründən sonra qoyulub. Əgər sıralamaya nəzər salsaq, ön fasadda dahi Azərbaycan şairi N.Gəncəvi, gürcü şairi Ş.Rustaveli, rus şairi A.Puşkin, XII əsrin Azərbaycan şairəsi M.Gəncəvi, rus alimi D.Mendeleyev, Azərbaycan milli mətbuatının əsasını qoyan görkəmli maarifçi H.Zərdabi, rus yazıçısı M.Qorki, məşhur Azərbaycan bəstəkarı Ü.Hacıbəyli, Azərbaycanın ilk Xalq şairi S.Vurğununun heykəlləri ucalır. Binanın Rəşid Behbudov küçəsinə tərəf baxan eyvanlarında isə Azərbaycan peşəkar vokal sənətinin banisi Bülbül, məşhur Azərbaycan dirijoru Niyazi, Azərbaycanın tanınmış şairi R.Rza, görkəmli satirik şair M.Ə.Sabir, Naxçıvan memarlıq məktəbinin banisi Ə.Naxçıvani və XVI əsr Təbriz miniatür məktəbinin banisi S.Məhəmmədin heykəlləri yerləşir.

Milli Kitabxananın inkişaf mərhələlərindən biri də 70-80-ci illərə təsadüf edir. 1970-ci illərin əvvəlləri Milli Kitabxananın elmi-tədqiqat, metodik və nəşriyyat fəaliyyətində təşəkkül dövrü oldu.

1969-cu ildə Heydər Əliyev Mərkəzi Komitənin birinci katibi seçildikdən sonra bu illərdə kitabxana quruculuğu sahəsində görülən işlər Ulu öndərin rəhbərliyi və qayğısı nəticəsində həyata keçirildiyindən bu inkişaf dönəmi Heydər Əliyev mərhələsi kimi xarakterizə olunur.

Milli Kitabxananın fəaliyyətinə müsbət təsir edən daha bir əhəmiyyətli hadisə 1974-cü ildə Mərkəzi Komitənin qəbul etdiyi "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunun artırılması haqqında" qərar oldu. Bu qərardan sonra İttifaqın və Azərbaycanın həm universal, həm də sahəvi elmi kitabxanalarının ölkənin elmi-texniki informasiya sisteminə inteqrasiyası başladı, elmi kitabxanalarda profil üzrə elmi-texniki və ya elmi informasiya şöbələri yaradıldı, bu, informasiyanın həm üfüqi, həm də şaquli istiqamətdə paylanması prosesini tənzimlədi.

Həmin qərardan doğan tədbirlər kimi Diyarşünaslıq və Milli Biblioqrafiya bölməsinin bazasında müstəqil şöbənin və Kitab mübadiləsi şöbəsinin təşkil edilməsini xüsusi qeyd etmək lazımdır.

Böyük inkişaf mərhələlərindən keçən Milli Kitabxananın fəaliyyətinin əsas çiçəklənməsi dövrü isə müstəqillik illərinə təsadüf edir. Məhz bu dövrdə Milli Kitabxana xalqımızın milli-mənəvi dəyərlərinin etibarlı şəkildə mühafizə olunaraq gələcək nəsillərə çatdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirən elm məbədinə, yeni texnologiyaların tətbiqi işində öndə gedən flaqmana, əsl mədəniyyət mərkəzinə çevrildi.

Təbii ki, keçid dövrünün çətinlikləri Milli Kitabxanadan da yan keçmədi. Ölkədə baş verən hadisələr kitabxanada durğunluğa, oxucu sayının azalmasına və bir sıra başqa çatışmazlıqlara səbəb oldu. 1998-ci ildə Milli Məclisdə Ulu öndər Heydər Əliyevin göstərişi ilə hazırlanmış "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunu Azərbaycan kitabxana işi tarixində böyük tarixi hadisə oldu və 90-cı illərin əvvəllərində bir çox çətinliklərlə üzləşən kitabxana yenidən dirçəlməyə, inkişaf etməyə başladı.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununun 7-ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 aprel, 2004-cü il tarixi qərarı ilə M.F.Axundov adına Dövlət kitabxanasına "Milli Kitabxana" statusu verildi.

Kitabxanalara yüksək qiymət verən, mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə həmişə diqqət və qayğı ilə yanaşan Ulu öndər Heydər Əliyev 1995-1997-ci illərdə dəfələrlə Milli Kitabxanaya gəlmiş və hər gəlişi ilə bu elm məbədinə yeni bir abu-hava, müsbət dəyişikliklər gətirmişdi. Ulu öndər təsadüfi olaraq demirdi ki, "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir". Kitaba belə dəyər verən Heydər Əliyev kitabxanaya gələrkən öz şəx-

si kitabxanasından 300 nüsxəyə yaxın qiymətli kitabı Milli Kitabxanaya hədiyyə etmişdi.

Dünyada gedən sürətli texniki proseslər, elektron vasitələrin durmadan önə çıxdığı, virtual aləmə üz tutulduğu bir dövrdə Milli Kitabxana daim yenilənir, beynəlxalq layihələrə, proqramlara qoşulur. Elmi-texniki tərəqqinin və yeni idarəetmənin fəal daşıyıcısı olan Milli Kitabxana 2006-cı ilin mayında ABŞ-ın VTLS korporasiyasının məxsusi kitabxanalar üçün işləyib hazırladığı VİRTUA proqramının tətbiqi ilə Milli Kitabxanada elektron kataloqun yaradılmasına hazırlıq işlərini başa çatdırmış, kitabxananın veb-saytının və elektron kataloqunun təqdimatı olmuşdur.

2010-cu ildən Kitabxana fondlarında olan kitabların rəqəmsallaşdırılması işi xeyli sürətlənmiş, "Azərbaycan ədəbiyyanın arxivi" və "Nadir kitablar və kitabxana muzeyi" şöbələrində olan və oxucular tərəfindən ən çox tələb olunan kitabların, XIX əsrin sonunda və XX əsrin əvvəllərində respublikamızda dərc olunan qəzet və jurnalların demək olar ki, 90%-nin elektron versiyası hazırlanmışdır.

Milli Kitabxananın oxuculara və kitabxanalara təqdim etdiyi son yeniliklərdən biri də məsafədən virtual kitab sifarişi sisteminin yaradılması oldu. Yəni internetə çıxışı olan hər bir oxucu saytdakı "Virtual xidmət" bölməsinə daxil olaraq istənilən kitabı sifariş edə bilir.

Müstəqillik illərində Milli Kitabxananın beynəlxalq əlaqələri də əhəmiyyətli dərəcədə genişlənmiş və beynəlxalq kitabxana təşkilatlarında uğurla təmsil olunmağa başlamışdır. Azərbaycan Milli Kitabxanası Müstəqil Dövlətlər Birliyinin milli kitabxanalarını özündə birləşdirən Avrasiya Kitabxanalar Assambleyasının (BAE) beş təsisçisindən biridir.

Bundan başqa, 2005-ci ildə Azərbaycan Milli Kitabxanası dünyada çox nüfuzlu beynəlxalq kitabxana təşkilatı olan Avropa Milli Kitabxanaları Konfransı (CENL) təşkilatına, 2009-cu ilin avqustunda Beynəlxalq Kitabxana Təşkilatları və Assosiasiyaları Federasiyasına (İFLA) üzvlüyə qəbul edilib. Eyni zamanda Azərbaycan Milli Kitabxanası İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Milli Kitabxanaları və Arxiv təşkilatları Birliyinin və Türkdilli Ölkələrin Milli Kitabxanaları Direktorları Şurasının da üzvüdür və bu beynəlxalq təşkilatların layihələrində fəal iştirak edir.

Bu gün Milli Kitabxanamız 80-dən artıq ölkəsinin milli və universitet kitabxanaları ilə beynəlxalq kitab mübadiləsi yolu ilə kitab və digər nəşrlərin mübadiləsini həyata keçirir.

Ardıcıl şəkildə həyata keçirilən dövlət qanunları, ölkə başçısının kitaba, mədəniyyətə olan diqqəti kitabxana işində də hər an öz müsbət nəticəsini göstərir. Azərbaycan Respublikasında Kitabxana-informasiya sahəsinin inkişafında və yenidən qurulmasında mühüm mərhələni təşkil edən "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" bütövlükdə ölkəmizdə kitabxanaların, o cümlədən Milli Kitabxananın fəaliyyətinin günün tələbləri səviyyəsində yenidən qurulmasında, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasında, oxuculara kitabxana-biblioqrafiya xidmətlərinin təkmilləşdirilməsində və elektronlaşdırılmasında əhəmiyyətli rol oynadı.

Bu gün Milli Kitabxanada həyata keçirilən yeniliklər saya-hesaba gəlmir. Hazırda kitabxananın Azərbaycan ədəbiyyatının milli arxiv fondu, Azərbaycan ədəbiyyatı fondu, Azərbaycan bəstəkarlarının not əlyazmaları fondu və bütün digər sənədlər yüksək keyfiyyətli müasir tipli mobil kitab rəflərinə köçürülüb.

Milli Kitabxana ölkəmizdə kitab təbliğatı sahəsində ən öncül müəssisələrdən birincisidir. 2016-cı ilin iyul ayında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Milli Kitabxananın birgə layihə-

si əsasında paytaxt sakinləri və şəhərimizin qonaqları üçün Milli Kitabxananın nəzdində həftənin bütün günləri, 24 saat xidmət göstərən "Mən oxudum, sən də oxu" devizi altında işləyən "Açıq Kitabxana" yaradıldı.

Kitabxanada "Mən oxudum, sən də oxu" devizi altında kitabı kitaba dəyişmə guşəsi, Milli musiqi guşəsi, Dövri mətbuat və Uşaq ədəbiyyatı guşələri fəaliyyət göstərir. Hər bir vətəndaş artıq mütaliə etdiyi öz kitabını açıq kitabxanaya təhvil verməklə oxumadığı yeni bir kitab əldə edə bilir. Kitabxanada açıq səma altında poeziya günləri, mütaliə axşamları, ayrı-ayrı yazıçı və şairlərlə görüşlər, imza törənləri keçirilir, yeni kitabların təqdimat mərasimləri, imzalı görüşlər təşkil olunur.

2022-ci ildə isə Milli Kitabxana daha bir yeniliyə yol açdı. İstifadəçilərə xidmət şöbəsinin tərkibində yeni bir bölmə - "Uşaq bölməsi və uşaq istirahət guşəsi" istifadəyə verildi. Uşaq guşəsində uşaqlar xüsusi əməkdaşların qayğısı ilə əhatə olunur və istirahət edirlər. Sözügedən bölmədə işıqlı və əlvan rəngləri olan mütaliə və uşaq istirahət otaqları fəaliyyət göstərir.

2019-cu il sentyabrın 27-də Milli Kitabxanada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə "Nəsimi Əlyazmaları dünya kitabxanalarında" adlı kitab sərgisinin və Beynəlxalq əməkdaşlıq zalının açılışı ən yadda qalan tədbirlərdəndir. Açılışda 13 ölkənin Azərbaycandakı diplomatik nümayəndələrinin və dünya milli kitabxanalarının rəhbərləri də iştirak edirdilər.

Azərbaycan Milli Kitabxanasının gördüyü işlər Azərbaycan Dövləti və Azərbaycan Prezidenti tərəfindən həmişə yüksək qiymətləndirilib. 2008-ci ildə Azərbaycan Milli Kitabxanasının 85 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Prezidenti Milli Kitabxananın kollektivinə "Təbrik məktubu" göndərmiş, Milli Kitabxananın direktoruna və 5 nəfər digər əməkdaşına "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmiş, digər bir sərəncamla isə Milli Kitabxananın 4 nəfər əməkdaşı "Tərəqqi" medalı ilə təltif edilmişdir.

2013-cü ildə, M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının 90 illik yubiley tədbirləri çərçivəsində isə "Azərbaycan Milli Kitabxanasının 7 əməkdaşına Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycanda kitabxana işinin inkişafında xidmətlərinə görə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adı verildi. Cənab Prezidentin imzaladığı digər sərəncamla ölkəmizdə kitabxana işinin inkişafında xidmətlərinə görə Milli Kitabxananın direktoru, professor K.Tahirov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, Milli Kitabxananın 6 nəfər əməkdaşı isə "Tərəqqi" medalı ilə təltif olundu.

Uzun illər Ana Kitabxanamız olan Milli Kitabxana xalqımızın milli-mənəvi dəyərlərini etibarlı şəkildə mühafizə edərək gələcək nəsillərə çatdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirmiş, oxuculara kitabxana xidmətinin müasir dövrün tələblərinə uyğun olaraq yenidən qurulması məqsədilə yeni texnologiyaların tətbiqi işində öndə getmiş, milli-mənəvi dəyərlərimizin təbliğində layihələrə imza atmışdır. Kitabxana bu gün də öz peşəkar iş prinsipini uğurla davam etdirir.

Bu il Azərbaycan Milli Kitabxanasının fəaliyyətə başlamasının 100 ili tamam olur. Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalayıb. Bu sərəncam dövlətimizin mədəniyyətə, mənəviyyata, ədəbiyyata, kitaba və kitabxanaya verdiyi dəyərin daha bir təcəssümüdür. Biz kitabxana əməkdaşlarının isə ən böyük arzusu və missiyası oxucu bolluğu və kitaba olan yüksək sayğının, sevginin hər zaman var olmasıdır.